# 2021-2025-Cİ İLLƏR

# STRATEJİ İNKİŞAF PLANI

Azərbaycan Qızıl Aypara Cəmiyyəti

Azerbaijan Red Crescent Society












# Yeni Strateji İnkişaf Planı Milli Cəmiyyətin davamlı inkişaf sənədidir.



Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı dünya ölkələrində mövcud olan humanitar şəbəkəsi vasitəsi ilə hər yerdə öz xeyirxah missiyasını həyata keçirən və müxtəlif fəlakətlərdən zərər çəkmiş insanların üzləşdikləri çətinliklərin aradan qaldırılmasına xidmət edən qlobal bir təşkilatdır. Beynəlxalq Hərəkat əsasən silahlı münaqişələrin, təbii fəlakətlərin və digər humanitar böhranların təsirinə məruz qalan insanların çoxtərəfli ehtiyaclarına çevik və effektiv cavab verməyə çalışır, davamlı şəkildə Fundamental Prinsiplərin yerlərdə tətbiq olunması üçün lazımi addımlar atır, könüllü xidmət prinsipini əsas tutaraq yerli, milli, regional və beynəlxalq səviyyədə sistemli şəkildə fəaliyyət göstərir. Məhz bu fəaliyyətlərin həyata keçirilməsi üçün hədəflənmiş məqsədlər və həmin məqsədlərin həyata keçirilməsində mükəmməl Strateji İnkişaf Planı vacib və əhəmiyyətlidir.

Ümidvaram ki son aylar ərzində müvafiq İşçi Qrupu tərəfindən işlənilib hazırlanmış 2021-2025-ci illər üçün nəzərdə tutulan Strateji İnkişaf Planı Milli Cəmiyyətin növbəti 4 illik mərhələdə olan inkişafında əhəmiyyətli bir istiqamət olacaqdır. İşçi Qrupu Strateji İnkişaf Planının işlənilib hazırlanması üzərində fəaliyyətə başladığı ilk günlərdən tərəfimdən bütün prioritet strateji istiqamətlər üzrə tövsiyyələr verilmişdir. Əsasən işğaldan azad olunmuş ərazilərdə Qarabağ Regional Mərkəzinin və onun əhatə etdiyi yerli bölmələrin yenidən qurulması, aktiv fəaliyyət göstərməsi, güclü maddi-texniki bazaya sahiblənməsi ilə bağlı yeni strateji xəttə start veriləcəkdir. Həmçinin miqrasiya, münaqişələr zamanı öhdəliklərimiz, pandemiya və yoluxucu xəstəliklər zamanı aktiv fəaliyyətimizi təmin edən istiqamətlərin göstərilməsi metodlarını özündə cəmləşdirən mükəmməl bir sənədin işlənib hazırlanması işçi qrupu qarşısında tərəfimdən əsas məqsəd kimi qoyulmuşdur.

Artıq geridə qoyduğumuz 2016-2020-ci illər üzrə Strateji Planın həyata kerçirlməsi və üzərimizə götürdüyümüz məqsədlər barədə danışmaq istərdim.Əldə etdiyimiz nailiyyətlər hər bir ilin ayrıca hesabatında ətraflı şəkildə, statistik məlumatlarla yazılaraq saytımızda yerləşdirilmiş və müvafiq hökümət və partnyor təşkilatlara təqdim edilmişdir. Etiraf etməliyəm ki planın başlanmasının ilk aylarından məlum 2016-cı il Aprel hadisələri bizi bır sıra istiqamətlərdə daha da çevik, məsuliyyətli olmağa vadar etdi. Belə ki məhz Aprel hadisələrindən sonra qısa bir müddət ərzində Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birlikdə Milli Cəmiyyətin silahlı münaqişələr zamanı hərəkət planı işlənilib hazırlandı. Planın tərkib hissəsi kimi Ağdam, Tərtər, Qazax, Fizuli bölgələrində mobil könüllü dəstələr formalaşdırıldı. Sözügedən dəstələrə bütün lazımi bilik və bacarıqların artırlması istiqamətində seminar və treyninqlər keçirildi. Keçən 4 illik fəaliyyətimizə diqqətlə nəzər etsək, görərik ki, hazırlanmış könüllü dəstələr kənd icmalarında ehtiyaclı yerli insanlara “İqtisadi Təhlükəsizlik” layihəsi çərçivəsində əvəzsiz xidmətlər göstərdilər. Məhz Strateji İnkişaf Planının yekun ilində, yəni, 2020-ci ildə 27-si sentyabrdan 10 noyabra qədər münaqişə bölgəsində məlum münaqişədən əziyyət çəkən mülkü insanlara zəruri ilk yardımlar Mobil Könüllü Dəstə üzvləri tərəfindən fədakarcasına həyata keçirildi. Biz bir daha Milli Cəmiyyətin əsas fəaliyyət istiqaməti olan- dövlətə köməkçi və yardımçı rolu öhdəliyini şərəflə yerinə yetirdik. Böyük təəssüf hissi ilə qeyd etməliyəm ki, Bərdədə aparılan humanitar yardımlar zamanı könüllümüz Mustafayev Məhərrəm Ənvər oğlu həyatını faciəli şəkildə itirdi və iki nəfər könüllümüz xəsarət aldı. Bütün humanitar beynəlxalq təşkilatlar bu arzuolunmaz hadisəyə öz lazımi qiymətini verərək bizimlə həmrəy oldular.

Bundan başqa, daha bir təhlükə olan COVİD-19 virusunun yaratdığı qlobal narahatçılıq fəaliyyət diqqətimizi sağlamlıq və qayğı sahəsinə yönəltməyə vadar etdi. Məhz 2020-ci ilin mart ayının ilk günlərindən çevik işçi heyəti ilə fasiləsiz iş rejiminə keçərək bütün lazımi tədbirlərə start verdik. Qısa bir zaman müddətində vacib əhməyyətli layihələrə start verərək ətrafımızda ənənəvi humanitar partnyorlarımızdan savayı Ümüdünya Səhiyyə Təşkilatı, Türkiyə Qızıl Aypara Cəmiyyəti, “Procter & Gamble” şirkəti, ABŞ-ın Beynəlxalq İnkişafa Yardım Agentliyi, Avropa Birliyi, “Pepsi-Cola” şirkəti və digər

təşkilatları birləşdirib respublika üzrə ehtiyaclı insanlara vacib, əhəmiyyətli yardımlar etdik. İmkanlarımız çərçivəsində etdiyimiz yardımlar öz təyinatları üzrə göndərilərək həm zərər çəkmiş insanlar, həm də donorlar tərəfindən yüksək qiymətləndirildi. Bu gün böyük fəxr hissi ilə qeyd etməliyəm ki, Azərbaycanda beynəlxalq humanitar hərakatın vahid nümayəndəsi olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti dövlətə köməkçi və yardımçı rolunun öhdəsindən şərəflə gəlməkdədir. Bu istiqamətdə olan fəaliyyətlərimiz daha da effektiv və çevik olacaqdır.

Fürsətdən istifadə edərək, Milli Cəmiyyətin son dörd il ərzində öz humanitar fəaliyyətini həyata keçirməsi işinə dəstək olmuş bütün insanlara, Milli Cəmiyyətin işçi heyəti və könüllülərinə, yerli və beynəlxalq təşkilatlara öz minnətdarlığımı bildirirəm. Əminəm ki, humanitar fəaliyyətimiz davamlı olacaq, yerli və beynəlxalq səviyyədə dəstəklənəcəkdir.

**Novruz Aslanov**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti,

Milli Məclisin deputatı

## STRATEJİ MƏQSƏDLƏR

1. AzQAC-nın strukturunun missiyamıza uyğun qaydada effektiv və keyfiyyətli inkişafına nail olmaq.
2.İşğaldan azad edilmiş ərazilərdə Regional Mərkəz,yerli bölmələrin və ilk təşkilatların yenidən təşkili
3.Fövqəladə Hallara Hazırlıq və Cavabvermə
4.Sağlamlıq və qayğı
5.Gənclər və Könüllülər
6.Fondların artırılması və Gəlirgətirmə.

## STRATEJİ MƏQSƏD 1.

AzQAC-nın strukturunun missiyamıza uyğun qaydada effektiv və keyfiyyətli inkişafına nail olmaq.

**Vəzifə 1.**

AzQAC-ın Baş Qərargahının, işğaldan azad edilmiş ərazidə Qarabağ Regional Mərkəzinin əhatə etdiyi yerli bölmələr, Naxçıvan Muxtar Respublikası Komitəsi, Gənclər Komitəsi, Regional Mərkəzlər, şəhər, rayon və sahə bölmələrinin (ilk təşkilatların) fəaliyyətini təkmilləşdirmək və bununla daha effektiv, keyfiyyətli və zəruri ehtiyaclara çevik cavab verən xidmətlərin göstərilməsi.





- AzQAC Katibliyi tərəfindən yerli bölmələrin işçi heyətinin bilik və peşəkar səviyyələrinin yüksəldilməsi məqsədilə təlim və seminarların keçirilməsi, attestasiyalar və monitorinqlər vasitəsilə onların bilik və bacarıqlarının, peşəkarlıqlarının qiymətləndirilməsi;
- AzQAC-ın yerli bölmələrinin maddi-texniki bazasının (avto-nəqliyyat vasitələri, hüquqi ünvanların alınması,müasir İKT, ofis və mebel avadanlıqları) gücləndirilməsi və fərqləndirici nişanların (loqolu standart sərlövhələr, böyük və kiçik ölçülü bayraqlar) təkmilləşdirilməsi;
- AzQAC-ın şəhər, rayon və sahə bölmələrinin Katiblik səviyyəsində işləməsinə nail olunması;
- AzQAC-ın ölkə üzrə ehtiyacı olan insanlara yardım və xidmətlər göstərilməsi üzrə mövcud hesabat sisteminin təkmilləşdirilməsi, elektron hesabat sisteminə keçidin təmin olunması;
- Yerli və beynəlxalq səviyyədə ehtiyacı olan insanların humanitar və sosial yardımla təmin edilməsi, nəğd ödəniş sisteminə keçidin işlənməsi və onun daha səmərəli olaraq həyata keçirilməsi;
- İdarə və müəssisələrdə humanitar sahəyə aid olan təbliğatlar vasitəsilə Milli Cəmiyyətin üzvlərinin sayının artırılması;
- Hökumət və qeyri-hökumət strukturları və beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;
- AzQAC-nın birgə çalışdığı icmalar və ona müraciət edən ehtiyaclı insanlar adından aidiyyatı olan strukturlar qarşısında vəkil kimi çıxış etməsi;
- Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə respublika üzrə icmalar arasında pandemiya, yoluxucu –infeksion xəstəliklər, epidemiya, kimyəvi və bioloji silahların vurduğu zərər, baş verə biləcək nüvə silahlarının tətbiqi və atom-nüvə stansiyalarında sızma zamanı görüləcək tədbirlər haqqında səhiyyə-maarifi işinin aparılması;
- Milli Cəmiyyətin humanitar nüfuzunun qorunması və tərəfdaş təşkilatların Milli Cəmiyyətin missiyasına uyğunluğunun müəyyənləşdirilməsi üçün təşkilatın daxili nəzarət sisteminin yaradılması.

Vəzifə 2.

Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (QX/QAH) tarixi, AzQAC-nın tarixi, tərkib hissələri, fəaliyyəti, Fundamental Prinsiplərin yayımı və QX/QA emblemlərindən düzgün istifadə edilməsi.

- Milli Cəmiyyətin bütün işçi heyətinin və könüllülərinin BHH-un əsasları, QX/QAH-nın tarixi, tərkib hissələri, Fundamental Prinsiplər, QX/QA emblemlərindən düzgün istifadə qaydaları haqqında yayım seminarları ilə təmin edilməsi Rayon, şəhər və sahə bölmələrində gənclər üzrə təlimatçıların yayım işinin yerlərdə yerinə yetirilməsinə fəal şəkildə cəlb edilməsi;





- Milli Cəmiyyətin bütün işçi heyətinin və könüllülərinin BHH-un əsasları, QX/QAH-nın tarixi, tərkib hissələri, Fundamental Prinsiplər, QX/QA emblemlərindən düzgün istifadə qaydaları haqqında yayım seminarları ilə təmin edilməsi;
- Rayon, şəhər və sahə bölmələrində gənclər üzrə təlimatçıların yayım işinin yerlərdə yerinə yetirilməsinə fəal şəkildə cəlb edilməsi;
- Dövlət qurumlarında, yerli hüquq-mühafizə orqanlarında, təhsil ocaqlarında, hərbiçlər, eləcə də ümumi əhali arasında BHH-un əsasları və Fundamental Prinsiplər üzrə təlim və kampaniyaların keçirilməsi;
- QX/QAH-nın loqo və emblemlərindən sui-istifadə hallarının qarşısının alınması üzrə monitorinqlərin aparılması;
- Milli Cəmiyyətin loqosunun yerlərdə düzgün təsviri görünüşünün və istifadə edilməsinin təmin edilməsi üçün xüsusi qaydaların hazırlanması və nəzarət olunması;

**Vəzifə 3.**
Daxili və xarici kommunikasiya sistemini təkmilləşdirmək, AzQAC-nin imicinin artırılmasına nail olmaq.

AzQAC-nin İnformasiya, kommunikasiya və sosial-media siyasəti mövzsusunda bütün yerli bölmələrdə seminarların keçirilməsi və yerinə yetirilməsinə nəzarət olunması;
Milli Cəmiyyətin İnformasiya və Kommunikasiya şöbəsinin KİV-də, sosial-media şəbəkələrində Milli Cəmiyyət haqqında verilən məlumatları izləməsi və Milli Cəmiyyətin nüfuzuna xələl gətirəcək hər hansı bir məlumata dərhal açıqlama verməsi və aydınlıq gətirməsi;
Milli Cəmiyyət tərəfindən Baş Qərargah, Regional Mərkəzlər və yerli bölmələrdə KİV-nə məlumat verəcək məsul şəxslərin müəyyənləşdirilməsi və təyin edilməsi;

## *Fəaliyyət Göstəriciləri*

### 2025-ci ilin sonunadək:

- AzQAC-nin ölkə üzrə ehtiyacı olan insanlara yardım və xidmətlərin (xüsusi blanklar, işlək sənədlərin hazırlanması) göstərilməsi üzrə mövcud elektron sistemi təkmilləşdiriləcək;
- Yerli bölmələrin işçi heyətinin bilik, bacarıq və peşəkar səviyyəsi artırılacaq;
- AzQAC-nin fəaliyyətləri haqqında məlumatların yerli və xarici KİV-də, internet səhifələrində və sosial şəbəkələrdə yayılması ilə Milli Cəmiyyətin yerli və beynəlxalq nüfuzunun 80% artırılmasına nail olunacaq;
- AzQAC yerli bölmələrinin 100%-nə sürətli internet şəbəkəsi çəkilməsinə nail olunacaq;
- AzQAC üzvlərinin sayının artırılmasına nail olmaq;
- AzQAC-nin yerli bölmələrinin maddi-texniki bazası (avto-nəqliyyat vasitələri, müasir İKT, ofis və mebel avadanlıqları) gücləndiriləcək və fərqləndirici nişanların (loqolu standart sərlövhələr, böyük və kiçik ölçülü bayraqlar) artırılmasına nail olmaq;
- Milli Cəmiyyət Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının humanitar yardım üzrə müraciətinə cavab vermək;
- Yerli səviyyədə ehtiyaclı insanların yardım üçün müraciətlərinə maksimum müsbət cavab veriləcək;
- Yerli və beynəlxalq səviyyədə AzQAC ilə əməkdaşlıq edən təşkilatların sayı artırılacaq;

AzQAC-nin 7 Regional Mərkəzi, Naxçıvan Muxtar Respublikası Komitəsi və bölmə işçilərinə BHH-un əsasları, QX/QA Hərəkatının tarixi, tərkib hissələri, fəaliyyəti, Fundamental Prinsiplərin yayımı və QX/QA emblemlərindən düzgün istifadə edilməsi mövzusunda 25 təlim keçiriləcək və respublika üzrə 50.000 nəfərə yayım üzrə təlim keçiriləcək.

# STRATEJİ MƏQSƏD 2.

**İşğaldan azad edilmiş ərazilərdə Regonal Mərkəz, yerli bölmələrin və ilk təşkilatların yenidən təşkili**

- AzQAC Katibliyi tərəfindən işğaldan azad olunan ərazilərdə yerli bölmələrin işçi heyətinin bilik və peşəkar səviyyələrinin yüksəldilməsi məqsədilə təlim və seminarların keçirilməsi, attestasiyalar və monitorinqlər vasitəsilə onların bilik və bacarıqlarının, peşəkarlıqlarının qiymətləndirilməsi;
- AzQAC-nin yerli bölmələrinin maddi-texniki bazasının (avto-nəqliyyat vasitələri, hüquqi ünvanların alınması, müasir İKT, ofis və mebel avadanlıqları) gücləndirilməsi və fərqləndirici nişanların (loqolustandart sərlövhələr, böyük və kiçik ölçülü bayraqlar) təkmilləşdirilməsi;
- AzQAC-nin şəhər, rayon və sahə bölmələrinin Katiblik səviyyəsində işləməsinə nail olunması;
- AzQAC-nin ölkə üzrə ehtiyacı olan insanlara yardım və xidmətlərin göstərilməsi üzrə mövcud hesabat sistemin təkmilləşdirilməsi, elektron hesabat sisteminə keçidin təmin olunması;
- Yerli və beynəlxalq səviyyədə ehtiyacı olan insanların humanitar və sosial yardımla təmin edilməsi, nəğd ödəniş sisteminə keçidin işlənməsi və onun daha səmərəli olaraq həyata keçirilməsi;
- İdarə və müəssisələrdə humanitar sahəyə aid olan təbliğatlar vasitəsilə Milli Cəmiyyətin üzvlərinin sayının artırılması;
- Yerli hökumət və qeyri-hökumət strukturları və beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;
- AzQAC-nin birgə çalışdığı icmalar və ona müraciət edən ehtiyaclı insanlar adından aidiyyatı olan qurumlar qarşısında vəsatət qaldırması;
- Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə respublika üzrə icmalar arasında pandemiya, yoluxucu -infeksion xəstəliklər, epidemiya, kimyəvi və bioloji silahların vurduğu zərər, baş verə biləcək nüvə silahlarının tətbiqi və atom nüvə stansiyalarında sızma zamanı görüləcək tədbirlər haqqında səhiyyə-maarifi işinin aparılması;
- Milli Cəmiyyətin humanitar nüfuzunun qorunması və tərəfdaş təşkilatların Milli Cəmiyyətin missiyasına uyğunluğunun müəyyənləşdirilməsi üçün təşkilatın daxili nəzarət sisteminin yaradılması.

## *Fəaliyyət Göstəriciləri*

2021-ci ilin sonunadək Qarabağ Regional Mərkəzi və onun əhatə etdiyi rayon və şəhər bölmələrin, ilk təşkilatların yenidən təşkili, onların hüquqi sənədlərinin hazırlanması, müvafiq işçi heyəti ilə təmin olunması, ofis ünvanlarının alınmasının həyata keçirilməsinə nail olunacaq.
2022-ci ilin sonunadək Qarabağ Regional Mərkəzi və onun əhatə etdiyi rayon bölmələrinin ofis və lazımi infrastruktur layihələrinin (anbar, konfrans zal, treyninq mərkəzləri) tikilişinin həyata keçirilməsinə nail olunacaq.
2023-cü ilin sonunadək Qarabağ Regional Mərkəzi və onun əhatə etdiyi rayon bölmələri, ilk təşkilatlarının Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə icmalar arasında pandemiya, yoluxucu-infeksion xəstəliklər, epidemiya, kimyəvi və bioloji silahların vurduğu zərər, baş verə biləcək nüvə silahlarının tətbiqi və atom nüvə stansiyalarında sızma zamanı görüləcək tədbirlər haqqında səhiyyə-maarifi işinin aparılmasına nail olunacaq;
2023-cü ilin sonunadək Qarabağ Regional Mərkəzi və onun əhatə etdiyi rayon bölmələri, ilk təşkilatlar tərəfindən yerli və beynəlxalq səviyyədə ehtiyacı olan insanların humanitar və sosial yardımla təmin edilməsi, nəğd ödəniş sisteminə keçidin işlənməsi və onun daha səmərəli olaraq həyata keçirilməsinə nail olunacaq





# STRATEJİ MƏQSƏD 3.

**Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə AzQAC-nin imkanlarını səfərbər edərək, insan həyatını xilas etmək, böhran və fəlakətlərdən sonra işğaldan azad olunan ərzailərdə aparılan bərpa işlərində iştirak etmək.**

**Vəzifə 1.**

Fövqəladə hallara hazır olma və cavab verə biləcək mövcud sistemi təkmilləşdirmək.

- AzQAC-nin Fövqəladə Hallar Nazirliyi və digər beynəlxalq tərəfdaşlarla əməkdaşlığının və koordinasiyasının gücləndirilməsi;
- Fəlakətlərin idarə edilməsi üzrə hazırlanacaq milli planda AzQAC-nin rolunun müəyyən edilməsi;
- Yerli və beynəlxalq səviyyədə baş vermiş fəlakətlər zamanı zərərçəkmişlərə dəstək olmaq məqsədilə maddi və psixoloji reabilitasiya işlərinə cəlb olunma;
- AzQAC-nin fövqəladə halların (təbii və texnogen fəlakətlər, daxili və xarici silahlı münaqişələr) idarə edilməsi üzrə çevik cavabvermə planının hazırlanması;
- Beynəlxalq Federasiya tərəfindən qəbul edilmiş və yerli standartlara uyğun olaraq, AzQAC-nin ehtiyat və ehtiyaclarının qiymətləndirilməsi əsasında inventarlaşmanın təşkil olunması;
- Fövqəladə hallara hazırlıq və cavabvermə fəaliyyətini gücləndirmək məqsədilə təchizat və anbar sisteminin təkmilləşdirilməsi, humanitar yardım işinin təşkili və bu sahədə bölmə əməkdaşlarına təlimlərin keçirilməsi;
- Yerli bölmələrdə mütəmadi olaraq axtarış (ailə əlaqələrinin bərpası) üzrə təlimlərin keçirilməsi;
- Axtarış sahəsində hökumət və QHT, beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi;
- Fövqəladə hallar zamanı yerli və beynəlxalq səviyyədə itkin düşmüş insanların axtarışının beynəlxalq hüquqi qaydalara əsasən aparılması;
- Miqrasiya sahəsində hökumət və QHT, beynəlxalq təşkilatlarla ümumi koordinasiya yolu ilə əməkdaşlığın davam etdirilməsi;
- Məcburi köçkünlərin, qaçqınların və sığınacaq axtaranların baş verə biləcək hadisələrdə miqrasiya problemlərini azaltmaq məqsədilə mümkün repatriasiya əməliyyatlarında AzQAC-nin iştirakının təmin olunması;
- Fövqəladə hallardan öncə, fövqəladə hallar zamanı və fövqəladə hallardan sonra baş verə biləcək risklərin müəyyənləşdirilməsi məqsədilə qiymətləndirilmənin aparılması;
- AzQAC-nin respublika üzrə mobil könüllü dəstələrinin hazırlanması üzrə qaydaların yenilənməsi;








**Vəzifə 2.**

**Fövqəladə hallardan zərərçəkmiş insanların həyat fəaliyyətinin bərpa olunması istiqamətində zəruri dəstəyin göstərilməsi.**

- Fövqəladə hallar nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş və miqrasiya problemləri ilə üzləşən insanlara humanitar dəstək məqsədilə müxtəlif səpkidə fəaliyyətlərin planlaşdırılması və həyata keçirilməsinin təşkil edilməsi;
- Qaçqın, məcburi köçkün və sığınacaq axtaranların sıx şəkildə məskunlaşdığı yerlərdə ehtiyacların qiymətləndirilməsi əsasında layihə və proqramların hazırlanması, yerli və beynəlxalq tərəfdaş təşkilatlara təqdim olunması;
- Maddi cəhətdən çətinlik çəkən və öz doğmalarından müəyyən səbəblərə görə ayrı düşmüş miqrantların doğmaları ilə görüşdürülməsinə imkan daxilində dəstək verilməsi.

**2025-ci ilin sonuna qədər:**

- Fövqəladə hallar zamanı humanitar əməliyyatları idarə edə biləcək Milli Cəmiyyətin Humanitar əməliyyatları İdarəetmə Heyəti (MCƏİH) yaradılacaq;
- AzQAC-nin fövqəladə halların idarə edilməsi üzrə çevik cavab vermə planının hazırlanmasına nail olunacaq;
- AzQAC-nin Fövqəladə Hallar Nazirliyi və digər tərəfdaşlarla əməkdaşlığın və koordinasiyanın gücləndirilməsi məqsədilə işçi qrupu çərçivəsində 10 görüş keçiriləcək;
- Beynəlxalq Federasiya və yerli standartlara uyğun olaraq AzQAC-nin ehtiyat və ehtiyaclarının qiymətləndirilməsi əsasında illik olaraq inventarlaşma təşkil olunmasına nail olunacaq;
- Fövqəladə hallara hazırlıq və cavabvermə fəaliyyətini gücləndirmək məqsədilə təchizat və anbar sisteminin təkmilləşdirilməsi, humanitar yardım işinin təşkili, axtarış və ailə əlaqələrinin bərpası sahəsində bölmə əməkdaşlarına 40 təlimin keçirilməsinə nail olunacaq;
- AzQAC-nin bütün bölmə anbarlarında fövqəladə hallara cavabvermə məqsədilə 2000 (2000 x 5=10000 nəfər) dayanıqlı yardım ehtiyatları yaradılacaq;
- Fövqəladə hallara meylli bütün zonalarda risklər müəyyənləşdiriləcək;
- AzQAC-nin şəhər və rayon bölmələrində təhlükəsiz giriş zamanı fəaliyyət göstərən 6 yeni mobil könüllü dəstəsi yaradılacaq və onlar üçün 60 təlim keçirilməsinə nail olunacaq;
- Qaçqın, məcburi köçkün və sığınacaq axtaranların sıx şəkildə məskunlaşdığı yerlərdə ehtiyacların

## STRATEJİ MƏQSƏD 4.

### Sağlamlıq və qayğı

Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların sağlam və təhlükəsiz həyat sürməsi naminə əhalinin sağlamlıq məsələlərinə dair biliklərini artıqmaq.

**Vəzifə 1.**

Səhiyyə marifi və xidmətləri vasitəsilə əhalinin (icmaların) sağlamlığının qorunmasına nail olmaq və yoluxucu-infeksion xəstəliklər, pandemiyaya səbəb ola biləcək xəstəliklərin qarşısının alınmasıməqsədilə qabaqlayıcı səhiyyə-marifi və bütün lazımi tədbirlərin həyata keçirilməsi.








***Vəzifə 2.***

***Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafına yardımçı olmaq.***

- AzQAC-nin şəhər, rayon və sahə bölmələrində könüllü təmənnasız qan donorlarından ibarət yeni qrupların (həmçinin, Qrup 25-lərin) yaradılması, həmçinin, əsasnamələrin hazırlanması ilə öncə yaradılmış qrupların idarə olunma sisteminin təkmilləşdirilməsi;
- Yaradılmış qrup üzvləri və əhali arasında könüllü təmənnasız qan donorluğuna aid təlim və seminarların təşkil olunması;

***Vəzifə 3.***

**Əhalinin (icmaların) ilk yardım və psixososial dəstək üzrə bilik və bacarıqlarını artırmaq.**

- AzQAC-nin Regional Mərkəzlərində, Naxçıvan MR Komitəsində ilk yardım və psixososial dəstək üzrə təlim mərkəzlərinin yaradılmasına nail olunması;
- AzQAC-nin şəhər, rayon və sahə bölmələrində fövqəladə hallara hazırlıq və cavabvermə üçün yaradılmış mobil könüllü dəstələrin tərkibində könüllülərdən ibarət psixososial dəstək və ilk yardım üzrə xüsusi qrupların hazırlanmasına nail olunması;

- Mobil könüllü dəstələrində psixososial dəstək və ilk yardım üzrə könüllülərdən ibarət hazırlanmış xüsusi qrupların təlimləndirilməsi, onların bilik və bacarıqlarını aşkar etmək məqsədilə onlar arasında yarış-simulyasiyaların təşkil olunması;
- İcmalar arasında fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə ilk yardım, psixososial dəstək üzrə təlim-məşğələlərin keçirilməsi.

### *Fəaliyyət Göstəriciləri*

**2025-ci ilin sonuna qədər:**

- AzQAC-nin 30 şəhər, rayon və sahə bölməsində səhiyyə işçisi vəzifəsi təsis ediləcək və həmin səhiyyə işçilərinin müvafiq təlimlərlə təmin olunmasına nail olunacaq;
- AzQAC-nin şəhər, rayon və sahə bölmələrində əhali arasında səhiyyə maarifi işinin təşkil olunması məqsədilə səhiyyə işçiləri tərəfindən 200.000 insanın maariflənməsinə nail olunacaq;
- AzQAC-nin şəhər, rayon və sahə bölmələrində patronaj tibb bacılarının sayı 40-a çatdırılacaq və onların təlimləndirilməsinə nail olunacaq;
- AzQAC-nin şəhər, rayon və sahə bölmələrində könüllü təmənnasız qan donorlarından ibarət daha 10 "Klub - 25" yaradılmasına nail olunacaq;
- 50 000 nəfərin qan donorluğu sahəsində maariflənməsinə nail olunacaq;
- İcmalar arasında fövqəladə hallara cavabvermə məqsədilə ilk yardım, psixososial dəstək üzrə 150 təlim və məşğələ keçirilməsinə nail olunacaq;

## STRATEJİ MƏQSƏD 5.
### Gənclər və Könüllülər

**Azərbaycan Qızıl Aypara Cəmiyyətində gənclər və könüllülərin idarəetmə sisteminin inkişaf etdirilməsi və bununla sosial cəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan insanlara könüllü xidmətin səmərəliliyinin artırılması.**

**Vəzifə 1.**

**Gənclərə və AzQAC-nin könüllülərinə yüksək səviyyəli bilik, bacarıq və davranış qaydalarına yiyələnmələrinə kömək etmək məqsədilə onlara təlim keçmək və bununla Gənclər və Könüllülər sistemini inkişaf etdirmək.**

- Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası tərəfindən hazırlanmış YES (Gənclərin Cəlbolunma Strategiyası) (Youth Engagement Strategy), YABC (Gənclərin Nümunəvi Davranış Agenti kimi) (Youth as Agent Behaviour Change), Milli Cəmiyyətlər tərəfindən hazırlanmış "Yaşlı nəslin könüllülüyə qoşulma strategiyası"na, AzQAC-ın "Gənclər və Könüllülər fəaliyyəti" haqqında siyasətinə, 2009-cu il tarixli Azərbaycan Respublikasının "Könüllülük fəaliyyəti" haqqında qanununa əsasən, insan pərvərliyin, dözümlüyün və davranışın dəyişilməsinin təbliğatının təmin edilməsi;
- Bütün könüllülərin onların fəallığına, bilik və bacarıqlarına, təcrübələrinə və Milli Cəmiyyətin inkişafına verdikləri töhfələrinə əsasən qiymətləndirilməsi;





**Vəzifə 2.**

**Sosial cəhətdən zəif və qayğıya ehtiyacı olan əhali təbəqəsinin sosial təhlükəsizliyinin təmin olunması üzrə könüllü xidmətin səmərəliliyini təşkil etmək.**

- Könüllülərin AzQAC-nin fəaliyyətləri vasitəsilə həssas, təcrid olunmuş qruplara (QİÇS daşıyıcıları, vərəmli xəstələr, narkotik istifadəçiləri, fiziki cəhətdən qüsurlu olanlar, qan xəstəliklərindən əziyyət çəkənlər,kimsəsiz uşaqlar və tənha qocalar, miqrantlar və s.) effektiv xidmətlərin göstərilməsi və onların cəmiyyətə inteqrasiya üsullarının təmin olunması;

- Könüllülərin fərdi və ya mobil könüllü dəstələri şəklində fövqəladə hallar və ya onun nəticələrinin aradan qaldırılması üzrə fəaliyyətə cəlb edilməsinin təmin olunması;
- AzQAC-nin gənclər və könüllülərinin təbliği və maarifləndirmə işi vasitəsilə ailələrdə, təhsil ocaqlarında, internat məktəblərində uşaq və yeniyetmələrə qarşı zorakılıq hallarının qarşısının alınması;
- AzQAC ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında imzalanmış Anlaşma Memorandumuna əsasən AzQAC-nin Gənclər və Könüllülər şöbəsinin hədəfinə uyğun fəaliyyətlərin həyata keçirilməsi;
- Gənclər və könüllüləri fəaliyyətə cəlb etməklə uşaqların, yeniyetmələrin, gənclərin yollarda təhlükəsizlik, yol hərəkəti qaydalarının öyrənilməsi, yol-nəqliyyatı zədələri profilaktikası və xəbərdarlıq edilməsi üsullarının öyrənilməsi, və yol-nəqliyyat hadisəsi zamanı zərərçəkənə ilk yardım göstərilməsi qaydalarına yiyələnməsi;
- Gənclərdə ətrafdakılara qarşı diqqət, humanist münasibət, yoldaşlıq hissləri və digər mənəvi keyfiyyətlərin, həmçinin, yol təhlükəsizliyi mədəniyyəti anlayışının formalaşmasına nail olunması.

**Vəzifə 3.**
**Gənclər Komitəsinin işini yaxşılaşdırmaq.**

- Gənclər Komitəsinin cari strateji planda mövcud olan 4-cü məqsədə aid 1-ci və 2-ci vəzifələrin həyata keçirilməsi ilə bağlı Katibliyin Gənclər və Könüllülər şöbəsi ilə birgə işinin təmin edilməsi;
- Gənclər Komitəsinin əsasnaməsinə uyğun olaraq, idarəetmə orqanlarının iclaslarının təşkil edilməsi;
- Gənclər Komitəsinin fəaliyyətini gücləndirmək məqsədilə yerli və xarici donorların məlumat bankının hazırlanması;
- Gənclər Komitəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün ali və orta ixtisas təhsil ocaqlarında fəaliyyət göstərən sahə bölmələrindən Katibliyə daxil olan maliyyə vəsaitinin
- Gənclər Komitəsinə yönəldilməsinin təmin edilməsi;
- Gənclər Komitəsində təşkilati işlərin mövcud standartlara uyğun daha da inkişaf etdirilməsi.

## *Fəaliyyət Göstəriciləri*

**2025-ci ilin sonuna qədər:**

- Katiblikdə təkmilləşdirilmiş qaydada könüllülərin elektron qeydiyyat sistemi qurulacaq və AzQAC-nin şəhər, rayon və sahə bölmələrində həmin sistemin tətbiqinə nail olunacaq;
- 50000 yeniyetmə, gənc və könüllü müvafiq təlimlər alacaq və maarifləndirmə seminarlarında, kampaniyalarında iştirak edəcək;
- 25000 uşaq, yeniyetmə və gənc maariflənmə (yarışlar, viktorinalar, kampaniyalar, seminarlar, təlimlər və s.) vasitəsilə yol təhlükəsizliyi qaydaları və ilk yardım sahəsində maariflənəcək;
- Strateji Plan vəzifələrində göstərilən fəaliyyətlərdə iştirak edən könüllülər Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri və Hərəkatın davranış qaydaları haqqında biliklərə yiyələnəcək;
- Gənclərin və könüllülərin cəlb olunduğu layihələrin sayı 10-a çatacaq;

## STRATEJİ MƏQSƏD 6.

**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə imkanlarını və maliyyə mənbələrinin müxtəlifliyini təmin etməklə güclü maddi-texniki bazasını yaratmaq.**
**Vəzifə 1.**
**Hökumətlə, QHT-lar, özəl şirkətlərlə (sahibkarlarla) hüquqi və fiziki şəxslərlə münasibətləri yüksək səviyyəyə çatdırmaq.**

- Üzvlük haqlarının stabil qaydada toplanılması məqsədilə üzvlərinin sayının artırılmasına dair "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Qanuna müvafiq dəyişikliklərin edilməsi (Təşkilat İdarəsi ilə birgə);
- AzQAC-nin Fondların artırılması və gəlirgətirmə üzrə fəaliyyətinin əhali arasında, KİV-də işıqlandırılması;
- AzQAC-nin Fondların artırılması və gəlirgətirmə işinin beynəlxalq standartlara uyğun həyata keçirilməsinə dair yeni siyasətin hazırlanması;

- Fondların artırılması və gəlirgətirmə sahəsində seminar və təlim təşkil etməklə işçi və könüllülərin maarifləndirilməsi;
- Fondların artırılması və gəlirgətirmə fəaliyyətinin inkişafı layihəsinin hazırlanması və həyata keçirilməsi üçün donorun tapılması;
- AzQAC-nin fondların artırılması və gəlirgətirmə istiqamətinə uyğun olaraq inkişaf etmiş Milli
- Cəmiyyətlərin iş üsullarının yerli mühitə uyğun olaraq tətbiq edilməsi;
  Cəmiyyətin fəaliyyəti ilə əlaqədar layihələrin maliyyələşdirilməsi üçün donorlara təqdim edilməsi;
- İnkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edərək, əhali arasında yerli və mesenatlıq ideyaların aşılanması, mövcud yerli və beynəlxalq xeyriyyəçilik qrupları ilə işin təşkil olunması;
- AzQAC-nin fondların artırılması və gəlirgətirmə sahəsinin inkişafı üçün BQXK və
- BQX/QACF-nın dəstəyi ilə digər tərəfdaşların da bu istiqamətə cəlb olunması;
- Əldə olunan koorporativ münasibətlərdə qarşı tərəfin etibarlığını və təhlükəsizliyini müəyyən etmək məqsədilə mexanizmin hazırlanması;
- Koorporativ iş üsulları və qaydalarından istifadə edərək sosial öhdəliklərin yerinə yetirilməsi üzrə yerli donorların sayının artırılması;
- İanələrin (ianə qutuları, şəxsi ianələr,qida və qeyri-qida ianələri, onlayn ianə etmə, ilk yardım sahəsi və s.) sistemli və peşəkar şəkildə Cəmiyyətə daxil olmasının təmin edilməsi;
- ATM-lərdə (bankomatlarda) və mobil ödəmə məntəqələrində Cəmiyyətə ianələrin qəbul olunması mexanizminin işlənməsi;






## Vəzifə 2.
## İlk yardım təlimlərindən kommersiya fəaliyyəti kimi istifadə etmək.

- “AzQAC haqqında” Qanuna müvafiq dəyişikliyin edilməsi və ya müvafiq qurumlarla Anlaşma
- Memorandumlarının imzalanması (sürücülük vəsiqəsini alan vətəndaşların icbari qaydada AzQAC-nin ilk yardım kurslarını keçməsi və sertifikatla təmin edilməsi);
- Hökumət qurumlarının və QHT-lərin, yerli və beynəlxalq təşkilatların, şirkətlərin, qrup halında olan sadə vətəndaşların ödənişli ilk yardım kurslarına cəlb edilməsi.

### *Fəaliyyət Göstəriciləri*

**2025-ci ilin sonuna qədər:**

- Fondların artırılması və gəlirgətirmə layihələri hazırlanacaq və onların həyata keçirilməsi üçün donorlar tapılacaq;
- “AzQAC haqqında” Qanunda üzvlük haqlarının stabil qaydada toplanması, AzQaC işinin dahada səmərəliyini artırılması məqsədi ilə üzvlərinin sayının artırılması ilə bağlı müvafiq addımlar atılacaq;
- AzQAC-ın 5 müxtəlif şöbəsinin 5 layihəsi “Fondların artırılması və Gəlirgətirmə” şöbəsi tərəfindən donorlara təqdim edilərək maliyyələşdiriləcək;
- AzQAC tərəfindən 5 mesenat humanitar fəaliyyətə maliyyə dəstəyi verəcək və 10 filantrop qrupla münasibət yaradılacaq;

- Fondların artırılması və gəlirgətirmə sahəsinin inkişafı üçün BQXK və BQX/QACF-nın dəstəyi və Milli Cəmiyyətin öz təşəbbüsü ilə daha 20 yeni tərəfdaş bu istiqamətə cəlb olunacaq;
- Fondların artırılması və gəlirgətirmə sahəsi ilə bağlı bütün Regional Mərkəzlərdə və Naxçıvan MR komitəsində, yerli bölmələrdə sədrlər, işçilər və könüllülər üçün təlim və seminarlar keçiriləcək;
- İanələrin (ianə qutuları, şəxsi ianələr, qida və qeyri-qida ianələri, onlayn ianə etmə, ilk yardım sahəsi və s.); sistemli və peşəkar şəkildə Cəmiyyətə daxil olmasının təmin edilməsi ilə maksimum maliyyə vəsaiti cəlb olunacaq;
- “AzQAC haqqında”Qanuna müvafiq dəyişiklik ediləcək və ya müvafiq qurumlarla Anlaşma Memorandumu imzalanacaq (sürücülük vəsiqəsini alan vətəndaşların icbari qaydada AzQAC-nin ilk yardım kurslarını keçməsi və sertifikatla təmin edilməsi);
- AzQAC-nin ödənişli İlk yardım kursu keçməsi üçün 35 təşkilat müraciət edəcək və onlar üçün 350 ilk yardım kursu keçiriləcək.

















# Fundamental prinsiplər

## Humanizm

Döyüş meydanında əziyyət çəkən insanlara kimliyindən asılı olmayaraq yardım etmək istəyindən yaranaraq, biz bu gün istənilən şəraitdə əziyyət çəkən insanların iztirablarının qarşısını almaq və ya onları yüngülləşdirmək üçün çalışırıq.

## Neytrallıq

Biz münaqişələrdə tərəf tutmuruq. Bu yanaşma hər kəsin bizə olan inamını qorumağa və bütün tərəflərdən zərər çəkmiş mülki əhaliyə yardım göstərməyə kömək edir.

## Qərəzsizlik

Biz milliyyətindən, dinindən, irqindən, cinsindən və siyasi mövqeyindən asılı olmayaraq bütün insalara kömək edirik. Könüllü və ya Hərakatın təmsilçisi olaraq, yalnız insanların ehtiyaclarını nəzərə alır və onların çəkdikləri əzab-əziyyətin dərəcəsinə görə prioritetlərimizi müəyyən edirik.

## Müstəqillik

Hərakat müstəqildir. Milli cəmiyyətlər ölkənin humanitar xidmətlərinin tərkibi olmaqla yanaşı, bütün fundamental prinsiplərə riayət edə bilmək üçün öz muxtariyyətlərini saxlamalıdır.

## Könüllü xidmət

Hərakat heç bir maraq güdmür və yalnız könüllü olaraq fəaliyyət göstərir.

## Vahidlik

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. O hamı üçün əlçatan olmalıdır.

## Universallıq

Hərakat ümumbəşəridir. Bu Hərəkata daxil olan bütün Cəmiyyətlərin bərabər hüquqları var və onlar bir-birilərinə münasibətdə eyni öhdəlik və vəzifələrə malikdirlər.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti * Azerbaijan Red Crescent Society *









